# Prezident İlham Əliyevin Qarabağa səfəri dünyaya işğal dövrünün bitdiyini bəyan etdi

***Milli Məclisin Cəbrayıl rayonundan olan deputatı Ceyhun Məmmədov Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfərinin tarixi önəmini və ifadə etdiyi ümumi mənanı belə dəyərləndirdi:***

– Dövlət başçımızın öz xanımı ilə havasından hələ barıt qoxusu çəkilməmiş, hər addımına minalar basdırılmış Füzuli və Cəhrayıl rayonlarına səfəri bir çox yöndən xüsusi önəm daşıyır. Bu səfər riskli olması ilə yanaşı, düşmən üzərində qalibiyyət təntənəsi sərgilədi və mahiyyət baxımından tarixi əhəmiyyət daşıdı. Azərbaycanın qalib Ali Baş Komandanı İlham Əliyev dünya birliyinə və Azərbaycan cəmiyyətinə günümüzün bir sıra mühüm mesajlarını məhz azad edilmiş torpaqlarımızda, xalqımızın misilsiz Qələbəsi zirvəsindən səsləndirdi: “Azərbaycan heç zaman işğalla barışmayacaq, bütün torpaqlarını azad edəcək, öz tarixi torpaqlarına sahib çıxacaq, yenidən bu yerlərdə həyat bərpa olunacaq”.

İşğaldan azad edilmiş məntəqələrdə olarkən Prezident İlham Əliyev ermənilərin müdhiş vəhşiliklərinə qəzəblənərək onların hər yeri və şeyi dağıtdıqlarını, viran qoyduqlarını, beynəlxalq ictimaiyyətin isə illər uzunu bu vandallığa seyrçi və laqeyd yanaşmasını bütün kəskinliyi ilə ittiham etdi. Azərbaycan rəhbəri Ermənistanın işğal edilmiş ərazilərimizdə törətdiyi kütləvi dağıntılara, o cümlədən, Kəlbəcərdə və Ağdamda məğlubiyyət ağrısından quduzlaşmış ermənilərin son günlərdə elədikləri murdar əməllərə görə mütləq cavab verəcəklərini söylədi. Cənab Prezident bu məqsədlə xarici ekspertlərin Azərbaycana dəvət ediləcəyini, əhatəli qiymətləndirmə aparılacağını, vurulan ziyana görə təzminatın tələb olunacağını vurğuladı.

Prezident İlham Əliyevin Qarabağa səfəri, bütövlükdə, dünyaya işğal dövrünün bitdiyini bəyan etdi. Dövlət başçısı Əhmədbəyli – Füzuli—Şuşa yolunun çəkilişinə xeyir-dua verməsi ilə Qarabağda bərpa və quruculuq işlərinə start verdi. Ölkə rəhbəri bildirdi ki, işğaldan azad edilmiş bütün ərazilərdə əvvəlkindən də yaraşıqlı, müasir şəhər, qəsəbə və kəndlər salınacaq, dağıdılmış bütün obyektlər bərpa ediləcək.



**Dövlət başçısının və ölkənin birinci xanımının tarixlər şahidi, bütöv Azərbaycanın canlı yadigarı Xudafərin körpülərini ziyarət etməsinin xalqımız üçün də ikiqat sevincli olduğunu və xüsusi önəm daşıdığını vurğulayan deputat dedi:**

– Bu səfər, eyni zamanda, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanın milli-mənəvi dəyərlərinə, tarixi abidələrinə xüsusi önəm vermələrinin göstəricisidir.

Xudafərin ziyarəti Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərimizə həmişə sadiq qaldığını, mədəniyyət abidələrinə sahib çıxdığını və hər bir halda onları qoruyacağını bir daha təsdiqlədi. Xudafərin körpülərinin Azərbaycan tarixindəki, xalqımızın qəlbindəki özünəməxsus yeri və dəyəri bu ziyarətlə bir daha sərgiləndi.

Qalqımıza Qarabağ zəfərini qazandıran xalq–lider–ordu birliyi bu gün Azərbaycanda ən yüksək səviyyədədir. Bu zəruri və möhtəşəm birlik nəticəsində işğalçıların yurdumuzdan biabırcasına qovulmasına ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji yolda Prezident İlham Əliyevin müdriklik və uzaqgörənliklə davam etdirdiyi böyük siyasətlə nail olundu. İşğaldan azad edilmiş ərazilərin 27 il köçkünlük taleyi yaşamış əhalisi daim onlara xüsusi diqqət və qayğı göstərdiyinə, nəhayət, öz yurdlarına qayıtmalarını təmin etdiyinə görə Prezident İlham Əliyevə sonsuz minnətdarlıqlarını bildirirlər.

***Hazırladı:***
***R.TAHİR,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 19 noyabr.- S.2.